UOT 94(479.24)
https://doi.org/10.59849/2710-0820.2024.1.42

**Aynur Hacıqədirli**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan*
*hacigedirliaynur@gmail.com*
*Orcid: 0000-0002-4134-2803*

# RUSİYANIN QAFQAZ SİYASƏTİNDƏ PASKEVİÇ FAKTORU

***Açar sözlər:*** *Rusiya İmperiyası, Osmanlı imperiyası, Qacarlar dövləti, Qafqaz, Paskeviç faktoru*

"Qafqaz" adı Esxil və Herodot dövründən Qara və Xəzər dənizləri arasında uzanan dağ silsiləsi və hər iki tərəfdən ona bitişik ərazini ifadə etmək üçün mövcud olmuşdur.

Bu ərazinin xalqları uzun müddət Qacar və Osmanlı dövlətlərinin təsir dairəsi uğrunda mübarizələrinin subyekti olmuş, bununla da Rusiyanın öz nüfuz dairəsini genişləndirməsi üçün əlverişli şərait formalaşdırmışdır. Nəticədə, Şərq məsələsinin əhatə dairəsi də Rusiya imperiyasının Qafqaz uğrunda apardığı mübarizə ilə genişlənmişdir.

Məlumdur ki, Rusiya-Osmanlı-Qacar üçbucağında əsrlərlə davam edən rəqabət, Qafqazın Rusiya imperiyasının tərkibinə daxil olması ilə başa çatdı. XIX əsrin 20-ci illərinin sonunda, Qərbi Avropa dövlətlərinin (İngiltərə, Fransa və s.) fəal və açıq müqavimətinə baxmayaraq, Türkmənçay və Ədirnə beynəlxalq müqavilələri ilə Qafqaz Rusiya imperiyasının ərazisi kimi tanınmış oldu. 1827-ci il martın 29-da Sankt-Peterburqun əmrilə Yermolovun yerinə Qafqaz Korpusunun komandiri vəzifəsinə general-adyutant Paskeviç təyin edildi. Bu isə eyni zamanda, Yermolova yaxın olan və ya onun rəğbətini qazanan hər kəsin dərhal uzaqlaşdırılmasına, həmçinin onun tərəfdarlarının narazılığına səbəb oldu.

1826-1828-ci illər Rusiya-Qacar müharibəsi, Rəvan xanlığının, Naxçıvan və Təbrizin işğalı, Türkmənçay müqaviləsinin imzalanması və müqavilə nəticəsində ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi, "Erməni Vilayəti"nin yaradılması məhz general Paskeviçin adı ilə bağlıdır.

"Qafqaz" adı Esxil və Herodot dövründən Qara və Xəzər dənizləri arasında uzanan dağ silsiləsi və hər iki tərəfdən ona bitişik ərazini ifadə etmək üçün mövcud olmuşdur.

Qafqaz - bu bölgə həqiqətən heyrətamizdir! İllər, onilliklər, əsrlər, minilliklər keçir, sosial-iqtisadi formasiyalar dəyişir, dünya ya birqütblü, ya da çoxqütblü olur, aparıcı dövlətlər Yer kürəsinin müxtəlif yerlərində təsir dairələri uğrunda mübarizə aparır, lakin Qafqaz dörd coğrafi məkandan biri olaraq heç dəyişmir və buna görə də Avropanın Asiya ilə etno-mədəni "qovşaqları" həmişə güclülərin gözünün pərçimləndiyi geosiyasi nöqtə olaraq qalır. Bu tarixin bütün dövrlərində eyni əhəmiyyət kəsb etmiş və etməkdədir. [6, s.147]

Məlumdur ki, Rusiya-Osmanlı-Qacar üçbucağında əsrlərlə davam edən rəqabət, Qafqazın Rusiya imperiyasının tərkibinə daxil olması ilə başa çatdı. XIX əsrin 20-ci illərinin sonunda, Qərbi Avropa dövlətlərinin (İngiltərə, Fransa və s.) fəal və açıq müqavimətinə baxmayaraq, Türkmənçay və Ədirnə beynəlxalq müqavilələri ilə Qafqaz Rusiya imperiyasının ərazisi kimi tanınmış oldu.

Əslində, rusların Qafqazla münasibətlərinə retrospektiv nəzər salaraq qeyd edə bilərik ki, "Rusiya ilə Qafqaz arasında ilk təmaslar 914-cü ildə Dnepr çayının mənsəbindən varanqiyalıların bir dəstəsinin Don və Volqa vasitəsilə Xəzər dənizinə çataraq öz gəmilərini Dondan Volqaya aparmalarından sonra başlamışdır. 944-cü ildə Kiyev knyazı İqor Konstantinopolla müharibəyə başladıqdan üç il sonra "ruslar" (və ya "Şehlər") Xəzərdə yenidən peyda olmuş, İrana so-

xulmuş, sonra isə Arana doğru irəliləyərək, Berdaa şəhərini ərəblərdən geri almışlar.” [6. s.151]

Bu ərazinin xalqları uzun müddət Qacar və Osmanlı dövlətlərinin təsir dairəsi uğrunda mübarizələrinin subyekti olmuş, bununla da Rusiyanın öz nüfuz dairəsini genişləndirməsi üçün əlverişli şərait formalaşdırmışdır. Nəticədə, Şərq məsələsinin əhatə dairəsi də Rusiya imperiyasının Qafqaz uğrunda apardığı mübarizə ilə genişlənmişdir.

“Qafqaz müharibəsi” tədqiqatının müəllifi, Rusiya ordusunun generalı V.Pottonun fikrincə, İvan Qroznıdan başlayaraq demək olar ki, bütün rus çarları, Qafqazda öz hakimiyyətlərini möhkəmləndirməyə çalışmışlar. Müəllif bildirir ki, “Qafqazda hökmranlıq ideyası Rusiya tarixində İvan Qroznıdan başlayaraq irsi xarakter alır”. [5, s.14] Hökmdarlığı dövründə Kartli kralı I Aleksandrın əlaqələr qurduğu IV İvan özü Qafqazın Rusiya üçün hərbi əhəmiyyətini əvvəlcədən müəyyən edənlərdən biri olmuş, Sunja çayı üzərində Terek qalasını tikərək, Qafqazın bölgədəki hərbi-siyasi vəziyyət və inkişafına nəzarət etməyə başlamışdı. Atasının işini davam etdirən Fyodor İvanoviç də artıq Kaxetiya kralı II Aleksandrla müqavilə imzalamış və Kaxetiya (o dövrün rus sənədlərində-İber torpağı) [3,s.15) Rusiyanın tam vətəndaşlığını qəbul etmişdi.

1725-ci ildən, yəni I Pyotrun ölümündən sonra, əsrin ortalarına qədər olan dövr Rusiya dövlətinin özündə daxili qeyri-sabitlik, hərbi-siyasi məqsədlərindən o cümlədən Qafqaz istiqamətində geri çəkilməsi ilə nəticələndi. Nəhayət, 1732-ci il Rəşt müqaviləsinə əsasən, Qafqazdakı son vilayətlər Qacarlara qaytarıldı və rus qoşunları Qafqaz istiqamətindən çıxarıldı. Belə ki, İmperator Yelizaveta xarici siyasətdə cənuba yox, daha çox Qərbə yönəlmişdi. Buna görə də, onun hakimiyyəti dövründə gürcü çarları II Teymuraz və II Herakliusun Rusiya ilə yaxınlaşmağa yönəlmiş səylərinin güclənməsinə baxmayaraq, Cənubi Qafqazda siyasi vəziyyətin inkişafına münasibətdə təmkinlilik nümayiş etdirirlirdi.

I Pyotrun Cənubi Qafqazdakı hərbi-siyasi məqsədləri yalnız II Yekaterinanın planlarında öz əksini tapdı ki, bu da I Pyotrun ən cəsarətli təşəbbüslərini belə üstələmiş oldu. Bu, ilk növbədə, strateji maraqları özündə əks etdirən “Yunan layihəsi” ilə bağlı idi. Bu layihə Osmanlı İmperiyasını dağıtmağı, Rusiyanın protektoratı altında Yunanıstan imperiyası yaratmağı, Qara dənizi daxili dənizə çevirməyi nəzərdə tuturdu.

Küçük-Kaynarca sülh müqaviləsi əslində Qara dənizi Rusiya ticarəti üçün tam açdı, və Osmanlı İmperiyasının Cənubi Qafqazda hüquqlarının məhdudlaşdırılmasına gətirib çıxardı. Rusiyanın regionda mövqelərini gücləndirdi. Onun Qafqaza yolunu açdı. Artıq XVIII əsrin ikinci yarısında Cənubi Qafqazın Rusiyaya birləşdirilməsi məsələsi ümumi Şərq məsələsinin bir hissəsinə çevrildi.

II Yekaterinanın ölümündən sonra I Pavelin dörd illik hakimiyyəti dövrü Rusiyanın Qafqazda maraqlarının həyata keçirilməsində xüsusi mərhələ oldu. Bu dövrdə Rusiya dövlətinin siyasətinin istiqaməti və məzmunu dəyişir. Belə ki, I Pavelin ilk fərmanlarından birinə əsasən II Yekaterinanın Qacarlara qarşı (1795-ci ildə Ağa Məhəmməd xan Qacar tərəfindən Tiflisi ələ keçirib talan etdikdən sonra) göndərdiyi qoşunlar geri çağırılır, Ketrin qaydasına zidd olaraq - "Avropa münaqişələrində iştirak etməmək" (və Rusiya siyasətinə heç bir müdaxiləyə icazə verməmək) – Napoleona qarşı İtaliyaya qoşun göndərir, nəhayət, Türkiyə ilə İngiltərəyə qarşı yönəlmiş ilk müttəfiqlik müqaviləsini bağlayır. [2,s. 425] Bununla yanaşı, I Pavelin hərbi-siyasi fəaliyyəti bütün Don ordusunun (Napoleonun təkidi ilə) Orenburq çöllərindən keçərək Hindistanı fəth etmək cəhdi iflasa uğrayır. Bu zaman Yekaterinanın “Yunan layihəsi”nin həyata keçirilməsindən söhbət gedə bilməzdi.

Bu dövrdə Rusiyanın zəifləməsi, o səviyyəyə çatdı ki, hətta 1783-cü il Georgiyevsk müqaviləsi Rusiyanın Cənubi Qafqazdakı hərbi-siyasi nüfuzunu təmin edə bilmədi. Rusiya Qafqazda Şərqi Gürcüstanın Kartli və Kaxetiya krallığının ilhaqı ilə gələcək siyasətini əvvəlcədən müəyyənləşdirmişdir. Bu qərar Kartli və Kaxetiyanın sonuncu kralı XII Georginin xahişi ilə I Pavel tərəfindən qəbul edildi. [5, s. 157] Bu təklif XII Georginin uzaqgörən siyasətindən irəli gəlirdi. Bu məsələ ilə əlaqədar L.N. Qumilyov yazır: “Uzun müddət idi ki, Romanovlar ailəsi - Mixail, Aleksey, hətta Pyotr, Gürcüstanı qəbul etmək kimi ağır bir yükü öz üzərlərinə

götürmək istəmirdi. Yalnız Çar Pavel XII Georgiyə imkan verdi ki, onu Gürcüstanı Rusiya imperiyasına daxil etməyə razı salsın". [4, s.66]

Lakin ilhaq prosesi zamanı Rusiya dağlıların öz sisteminə inteqrasiyasını inzibati və məhkəmə nəzarəti altında hıyata keçirirdi. Belə bir vəziyyətdə, Rusiya 1804-1813-cü illər Rusiya-Qacar (Gülüstan sülhü) və 1806-1812-ci illər Rusiya-Osmanlı müharibələri (Buxarest sülhü) ilə istər Şimali Qafqaz, istərsə də Cənubi Qafqazda hüquqi və hərbi-siyasi baxımdan möhkəmləndi. Bu hərbi-siyasi mübarizənin son mərhələsini isə Tükmənçay və Ədirnə sülh müqavilələri tamamladı ki, bununla da Qafqazın Rusiya tərəfindən əsrlərlə davam edən müstəmləkə tarixi başlamış oldu. Qafqazın işğalı prosesində, xüsusilə də Azərbaycanın iki yerə parçalanmasında çar generallarının, o cümlədən General Paskeviçin özünəməxsus rolu olmuşdur.

"Rusiyanın Qafqaz siyasəti" mövzusu Azərbaycan Rusiya və Türkiyə tarixşünaslığında müxtəlif aspektlərdən işlənmişdir. Sırf bu ad altında olmasa da Azərbaycanın XVIII-XIX əsrlər tarixi problemləri fonunda eyni məsələyə diqqət yetirilmişdir. Bu problem Rusiya tarixçiləri tərəfindən istər SSRİ (sovet prizmasından), istərsə də müasir dövrdə kifayət qədər işlənmişdir. Türkiyə tarixşünaslığında isə bu problemə son 10-15 ildə müraciət edilmişdir. Mövzu ilə bağlı müxtəlif səpgili əsərlər ərsəyə gətirilmişdir.

Türkiyədə son dövrlərdə nəşr edilən əsərlər içərisində Serdar Oğuzhan Çaycıoğlunun "Rusya'nin Kafkasya Siyaseti. General Paskeviç`in Başkomutanlığı dönemi (1827-1831)" adlı kitabı üzərində dayanmaq istərdik.

Müəllif bu mövzuya müraciət etməsini "1827-1831-ci illərdə Rusiyanın Qafqaz Siyasətinin həyata keçirilməsində iştirak edən, sivil və hərbi səlahiyyət sahibi olan Baş Komandanın fəaliyyəti ilə bağlı araşdırmaların olmaması" ilə izah edir. [1, s.10]

Rusiyanın Qafqaz siyasətinin həyata keçirilməsində önəmli rol oynayanlardan biri olan General Paskeviç digərlərindən öz fəaliyyəti diplomatiyası və praktikliyi ilə fərqlənir. Onun fəaliyyət dövrü "Paskeviç faktoru" termini kimi tarixi ədəbiyyatlarda işlənilir. Məhz, Azərbaycan tarixinin qara səhifələrindən birinin yazılmasını, torpaqlarımızın iki yerə parçalanmasını əsaslandıran Türkmənçay sülh müqaviləsi birbaşa onun imzası ilə tarixə qovuşmuşdur.

1827-ci il martın 29-da Sankt-Peterburqun əmrilə Yermolovun yerinə Qafqaz Korpusunun komandiri vəzifəsinə general-adyutant Paskeviç təyin edildi. Bu isə eyni zamanda, Yermolova yaxın olan və ya onun rəğbətini qazanan hər kəsin dərhal uzaqlaşdırılmasına, həmçinin onun tərəfdarlarının narazılığına səbəb oldu.

Uzun yürüşlərə və döyüşlərə adət etmiş köhnə sərkərdələr isə Paskeviçin təyinatından təəssüflənmədilər. General Benkkendorf öz məktubunda general Dibiçə bildirirdi ki, "rəis dəyişikliyi elan edildikdə, onun komandanlıq etdiyi hərbi hissə ən kiçik bir narazılıq əlaməti belə ifadə etmədi, əksinə tam itaət göstərdi və hərbi vəzifələrini yerinə yetirməkdə canfəşanlıq etdi". Bu da General Paskeviçin Çar ordusunda böyük nüfuz sahibi olduğunun göstəricisi idi.

General Paskeviçin təyinatından Çar Rusiyası nə qədər razı idisə, Qacar dövləti bir o qədər narazı idi. Bu əsasən Paskeviçin qətiyyətli qərarlar qəbul etməsilə bağlı idi ki, bu da özünü danışıqların güzəştsiz xarakter almasında göstərdi. Belə ki, İmperator Paskeviçə ingilis missiyasını danışıqlara buraxmamaq və onun vasitəçiliyini rədd etmək əmrini vermişdi. Bu, Paskeviçin dönməz şəkildə əməl etməli olduğu proqram isə müharibənin davam etməsilə nəticələnəcəkdi. Paskeviç isə öz növbəsində Qacarlara qarşı hərbi əməliyyatlar davam edəcəyi halda heç bir xüsusi çətinliklə qarşılaşmayacağından əmin idi, çünki həmişə olduğu kimi orada yaşayan ermənilərin aktiv dəstəyinə inanırdı.

Qeyd edək ki, 1826-1828-ci illər Rusiya-Qacar müharibəsi, Rəvan xanlığının, Naxçıvan və Təbrizin işğalı, Türkmənçay müqaviləsinin imzalanması və müqavilə nəticəsində ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi, "Erməni Vilayəti"nin yaradılması məhz general Paskeviçin adı ilə bağlıdır.

6 oktyabr 1827-ci ildə Rəvan ələ keçirilən kimi Paskeviç "Rəvan Müvəqqəti Bölgə İdarəsi"ni yaratdı. Ordu komandanı general Krasovskini, Baş Yepiskop Nersesi və Komandan Borodini həmin İdarənin rəhbəri təyin etdi. Krasovski və Nersesin yerli türk xalqına qarşı həyata keçirdikləri amansızlıqlar nəticəsində türklər yaşadıqları torpaqları tərk edərək ətraf ra-

yonlara köç etməyə başladılar. Bu isə Rusiyaya rəğbət bəsləyən əhali arasında narazılıqların artmasına gətirib çıxardı. Müharibənin davam etdiyi, hələ işğal prosesinin başa çatmadığı bir vaxtda belə narazılıqların artması Paskeviçin məqsədlərinə xidmət etmədiyindən Kraskovski və Nerses tutduqları vəzifədən uzaqlaşdırıldılar.

Müharibə Rusiyanın tam qələbəsi ilə bitdikdən və 18 mart 1828-ci ildə Türkmənçay müqaviləsi imzalandıqdan sonra 21 mart 1828-ci ildə Rəvan, Naxçıvan və Ordubad bölgələrinin "qədim Ermənistan" torpaqları olduğu, həmin ərazilərin daxil olduğu Ermənistan vilayətinin yarandığı elan olundu, 25 mart 1828-ci ildə Rusiya çarının imtiyazları sırasına Erməni Vilayətinin hökmdarı vəzifəsi də əlavə edildi.

Bu kimi mühüm vəzifələrin həyata keçirilməsində və Rusiya çarı qarşısında xidmətlərinə görə isə General Paskeviçə "qraf" titulu verildi. General Paskeviç bundan sonra "Qraf Paskeviç – Erivanski" adlanırdı. Məhz çar I Nikolayın istəyi və Paskeviçin fəaliyyəti nəticəsində Türkmənçay müqaviləsinin ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçünü əsaslandıran XII, XIV və XVI maddələri hazırlanaraq qəbul edildi. Erməni köçünü göstərən kiçik bir cədvəl təqdim etmək istərdim:

Erməni vilayətinə 1829-1831-ci illərdə köçürülən ermənilərin sayı: [1, s. 421]

| **Rəvan və Naxçıvan-da yaşayan yerli türklər** | **Yerli ermənilər** | **Qacaqrlar dövlətindən köçürülənlər** | **Osmanlı dövlətindən köçürülənlər** |
|---|---|---|---|
| **81.749 nəfər (16.087 ailə)** | **25.151 nəfər (4.428 ailə)** | **35.560 nəfər (6.949 ailə)** | **21.666 nəfər (3.682 ailə)** |

Paskeviç bəlkə də Yermolovdan fərqli olaraq yerli əhali ilə mülayim davranırdı, amma onun Azərbaycan xalqının tarixi ilə yanaşı mədəniyyətinə vurduğu ziyan haqqında bunu söyləmək mümkün deyil. Belə ki, Çaycıoğlunun rus mənbələri əsasında yazdıqlarından yola çıxaraq söyləyə bilərik ki, Cənubi Azərbaycan torpaqlarına yürüşü zamanı Baş Qərargah Rəisi Dibiçin göstərişi ilə Ərdəbildə yerləşən Şeyx Səfiəddin Məscidində saxlanılan qiymətli əlyazmalar Sankt-Peterburqa göndərmişdir. Yerli mollaların etirazı zamanı isə "üzü köçürüldükdən sonra geri qaytarılacağı" bildirilmişdi. Qacarlar dövlətinin Təbriz, İsfahan, Tehran, Rəşt, Məşhəd, Mərv və Herat kimi şəhərlərində qiymətli əlyazmaların saxlanıldığı haqqında məlumatı isə General Dibiçə Rusiya şərqşünası, professor Senkovski vermişdi. [1, s.114]

Qacarlarla müharibəni uğurla başa vurduqdan sonra Paskeviç Osmanlı dövləti ilə müharibəyə başladı. Rusiya Xəzər dənizinin qərb sahilləri ilə Qara dənizin şərq sahillərini ələ keçirərək şərq-qərb ticarətində paya sahib olmaq istəyirdi. Xəzər dənizi vasitəsilə Hindistanla ticarət əlaqələri qurmaq Rusiyanın hələ I Pyotr dövründən həyata keçirməyə çalışdığı siyasi xətt idi. Bu da Rusiyanın Qafqazda hakim mövqeyə sahib olan Qacarlar və Osmanlı dövləti ilə müharibəsini qaçılmaz edirdi. Müharibəyə hazırlıq dönəmində Paskeviç Osmanlıda yaşayan xalqlarla, xüsusilə də kürdlərlə əlaqələrə girmiş, onları sulatana qarşı mübarizəyə qaldırmağa çalışmışdı. Onlar Osmanlılara qarşı mübarizəyə qalxmasalar da, onları müdafiə də etmədilər. Bu isə Ərzurum, Bayburt və Gümüşhanənin asanlıqla ələ keçirilməsinə səbəb oldu.

1829-cu il Ədirnə müqaviləsinə görə Qara dənizin şərq sahillərində Çərkəz bölgəsində yerləşən bəzi qalalar, Ahılkələk, Ahıska Rusiya tərəfindən ələ keçirilmişdi. Rusiyanın bu bölgələrdə möhkəmlənməsini istəməyən Şimali Qafqaz xalqları rus ordularına qarşı ciddi müqavimətə başladılar.

Paskeviç bu əraziləri də bir hücumda ələ keçirəcəyini düşünür, bunun üçün Rusiyadan iki polk gətirilməsini tələb edirdi. Peterburqdan Şimali Qafqazın işğal planı ilə bağlı bəzi təkliflər göndərilmişdi. Bu təkliflər içərisində Şimali Qafqazın işğalının mənəvi dəyərlərin dəyişdirilməsi istiqamətində başlanması da var idi. Təklifdə mollaların yanında yepiskopların da oturması və yerli gənclər içərisində xristianlığın üstünlüklərinin təbliğ edilməsi, musiqi və rəqs məktəblərinə gənclərin kütləvi şəkildə cəlb edilməsi və s. nəzərdə tutulurdu. Lakin Paskeviç bu təkliflərlə tanış olduqdan sonra qısa şəkildə "olmaz" yazaraq cavablandırmış və məktubları arxivə qaldırmışdır.

Paskeviçin Şimali Qafqazın işğalı ilə bağlı iki planı vardı: Birinci planda sürətli şəkildə dağlara daxil olaraq içərilərə doğru irəliləmək nəzərdə tutulurdu. Lakin bu zaman dağlıların meşələrin içərilərinə qaçıb, orada gizlənib, sonradan isə mübarizələrini davam etdirəcəklərini və bunun ruslar üçün çox böyük itki ilə nəticələnəcəyini düşündüyündən Paskeviç bu plandan imtina edir. İkinci plan isə kiçik məntəqələri ələ keçirərək möhkəmlənmək, kommunikasiya sistemləri qurmaq, addım-addım irəliləyərək bütün ərazini tutmağa əsaslanırdı. Lakin sonradan hər iki planı birləşdirərək əraziyə hücum zamanı oradakı vəziyyətə uyğun hərəkət etmək qərarına gəlir ki, bu da onun Şimali Qafqazda istədiyi nəticələri əldə edə bilməməsinə gətirib çıxarır.

Tədqiqatçı Sərdar Oğuzxan Çaycıoğluna görə Qafqaz xalqlarının general Paskeviçə münasibəti fərqlidir. Belə ki, Gürcüstanın mühafizəsini təşkil etmək üçün bərpa işlərini apardığı, yeni qalalar tikdirdiyi, Ahıska və Ahılkələk qalalarını onlara birləşdirdiyi üçün gürcülərin bir hissəsinin Paskeviçə çox böyük rəğbəti vardır. Amma generalın bəzi gürcü əsdilzadələrini tutduqları vəzifələrdən uzaqlaşdıraraq, onların yerinə ermənilərin Ahıska, Ahılkələk və ətraf rayonlara yerləşdirilməsi məsələsi Paskeviçlə bağlı mənfi fikirlərin formalaşmasına səbəb olmuşdur. Qafqazın müsəlman xalqları olan ləzgilər, çərkəzlər, osetinlər, çeçenlər tərəfindən isə Paskeviçin Qafqazdakı fəaliyyəti birmənalı şəkildə mənfi xatırlanır. [1, s. 240]

Məqalənin sonunda qeyd etmək istərdim ki, ermənilərin tarixində onlar üçün "Erməni vilayəti" yaradan, Azərbaycanın tarixi torpaqlarında yerləşmələrini təşkil edən Paskeviçin xüsusi yeri vardır. Əminəm ki, Azərbaycan xalqının yaddaşında isə Paskeviç torpaqlarımızı iki yerə bölən, bizim üçün həlli müşkülə çevrilən erməni və gələcək Ermənistan problemini yaradan şəxs olaraq daima nifrətlə xatırlanacaqdır.

## Ədəbiyyat


1. Çayçioğlu S.O. "Rusiya'nin Kafkasya Siyasəti. General Paskeviçin Komutanligi dönəmi (1827-1831)". Türk Tarih Kurumu, Ankara, 2021
2. Qarayeva G.İ., Hacıqədirli A.M. Yaxın və Orta Şərq ölkələrinin yeni tarixi. Bakı: "Adiloğlu" nəşriyyatı, 2014
3. Белокуров, С.А. Сношения России с Кавказом: Материалы, извлеченные из Московского главного архива Министерства иностранных дел. Вып. 1, 1517 – 1613. – М.,1889. – С.XYIII (https://runivers.ru/bookreader/book450958/#page/1/mode/1up)
4. Гумилев, Л.Н. Меня называют евразийцем //Наш современник. – 1991. – № 1., s. 62-70.
5. Потто, В.А. Кавказская война: Т.1. (5 т.) – Ставрополь: «Кавказский край». 1994
6. Соловьев, С.М. История России с древнейших времён. Кн. I., Moskva: Издательство социально-экономической литературы,1959
7. Тиктопулло, Я.Ф. Русско-турецкие войны 1768 – 1774, 1787 – 1791 гг. и судьбы греков. Греческий проект Екатерины II. Автореф. дис. … канд. ист. наук. – М.,1991 (https://rusneb.ru/catalog/000199_000009_000088775/)


## Summary

**Aynur Hajigadirli**

**Paskevich factor in Russia's Caucasus Policy**


The name "Caucasus" has existed since the time of Aeschylus and Herodotus to denote the mountain range stretching between the Black and Caspian seas and the area adjacent to it on both sides.

The peoples of this area have long been the subjects of the struggle for the sphere of influence of the Qajar and Ottoman states, thereby creating favorable conditions for Russia to expand its

sphere of influence. As a result, the scope of the Eastern issue was expanded by the Russian Empire's struggle for the Caucasus.

It is known that the centuries-long rivalry in the Russian-Ottoman-Qajar triangle ended when the Caucasus became part of the Russian Empire. At the end of the 20s of the 19th century, despite the active and open resistance of the Western European states (England, France, etc.), the Caucasus was recognized as the territory of the Russian Empire with the international agreements of Turkmenchay and Edirne.

On March 29, 1827, by order of St. Petersburg, Adjutant General Paskevich was appointed as the commander of the Caucasus Corps instead of Yermolov. At the same time, this led to the immediate removal of everyone close to Yermolov or his sympathies, as well as to the displeasure of his supporters.

The Russo-Qajar War of 1826-1828, the occupation of Ravan Khanate, Nakhchivan and Tabriz, the signing of the Treaty of Turkmenchay and the transfer of Armenians to the historical lands of Azerbaijan as a result of the agreement, the establishment of the "Armenian Province" are connected with the name of General Paskevich.

***Keywords:*** *Russian Empire, Ottoman Empire, Khajar state, Caucasus, Paskevich factor*

## Резюме

**Айнур Гаджигадирли**

## Фактор Паскевича в Российской Политике на Кавказе

Название «Кавказ» существовало со времен Эсхила и Геродота для обозначения горной цепи, протянувшейся между Черным и Каспийским морями, и прилегающей к ней с обеих сторон территории.

Народы этого региона издавна были субъектами борьбы за сферу влияния Каджарского и Османского государств, создавая тем самым благоприятные условия для расширения Россией своей сферы влияния. В результате масштабы Восточного вопроса расширились борьбой Российской империи за Кавказ.

Известно, что многовековое соперничество в российско-османско-каджарском треугольнике завершилось с вхождением Кавказа в состав Российской империи. В конце 20-х годов XIX века, несмотря на активное и открытое сопротивление западноевропейских государств (Англии, Франции и др.), Кавказ был признан территорией Российской империи по Туркменчайскому и Адрианопольскому международным договорам.

29 марта 1827 года по приказу из Санкт-Петербурга командиром Кавказского корпуса вместо Ермолова был назначен генерал-адъютант Паскевич. Что привело к немедленному устранению всего окружения Ермолова или его поддержки, а также к недовольству его сторонников.

Русско-Каджарская война 1826-1828 годов, оккупация Реванского ханства, Нахичевани и Тебриза, подписание Туркменчайского договора и в результате соглашения переселение армян на исторические земли Азербайджана, создание "Армянской губернии» связаны с именем генерала Паскевича.

***Ключевые слова:*** *Российская империя, Османская империя, Каджарское государство, Кавказ, фактор Паскевича.*